# İqtisad Universiteti regionun iqtisadyönümlü universitetləri arasında 4-cü yerə yüksəldi

**14 iyun 2016-cı il üçün QS reytinq agentliyinin İnkişaf Etməkdə olan Avropa və Mərkəzi Asiya regionu üzrə sıralaması açıqlanıb. Reytinq 9 indikator üzrə regionun 30 ölkəsinin 500-dən çox universiteti arasında aparılıb.**

Reytinqin nəticələrinə əsasən, Azərbaycan Dövlət İqtisad Universiteti (UNEC) ilk dəfədir ki, inkişaf etməkdə olan Avropa və Mərkəzi Asiya Universitetlərinin reytinqində iqtisadyönümlü 4-cü universitet olmaqla, regionun ən yaxşı 200 universiteti arasında qərarlaşıb.

İndikatorlar akademik reputasiya, məqalə üzrə sitat sayı, işəgötürənlərin reputasiyası, müəllim-tələbə nisbəti, elmi dərəcəsi olan müəllimlərin sayı, əcnəbi müəllimlərin sayının yerli müəllimlərin sayına olan nisbəti, əcnəbi tələbələrin yerli tələbələrə olan nisbəti, veb təsir, məqalə sayının müəllim sayına olan nisbəti üzrə qiymətləndirilib.

Akademik reputasiya indikatoru üzrə göstəricilər ali təhsil müəssisələrinə öz akademik fəaliyyətlərinin mövcud vəziyyətini təhlil etmək imkanı verir. Bu zaman dünya üzrə rəy verənlərin cavabları əsas götürülür. Qiymətləndirmə zamanı bu il 77000-dən çox rəy toplanıb. Reytinqdə 30% olmaqla, ən böyük çəkiyə malik akademik reputasiya indikatoru üzrə UNEC-in əldə etdiyi qiymətləndirmə 39.4-dür.

Azərbaycan ali təhsil müəssisələri arasında ən yaxşı göstəricisi olan UNEC-in veb təsir indikatoru üzrə internet resurslarının effektivliyi 52.6 balla qiymətləndirilib. Bu indikator üzrə universitetlərin yeni texnologiyalardan səmərəli istifadəsi qiymətləndirilir. Burada əsas Webometrics qiymətləndirmələri götürülür ki, 2015-2016-cı illər üzrə reytinqdə UNEC ölkə üzrə birinci yerdə qərarlaşıb.

İşəgötürənlərin reputasiyasında ötən illərin göstəricilərinə nisbətən xeyli irəliləyiş var. Bu indikator üzrə ümumilikdə 2016-cı il üçün 44200-dən çox rəy toplanıb. UNEC-in dünya və yerli işgüzar dairələrdə artan nüfuzunun göstəricisi olaraq, biznes qurumlarının rəhbər və nümayəndələrinin verdiyi səsvermə əsasında yekun bal 22.2 olub. Qiymətləndirmə universitet məzunlarının müxtəlif müəssisələrə işə götürülməsinin təhlil olunmasına kömək göstərir.

Müəllim və tələbə sayı nisbəti indikatoru üzrə ballar 22.1 olub. Bu indikator üzrə tədris aparan müəllim heyəti sayının tələbə sayına olan nisbəti götürülür. Müəllim sayına düşən məqalələrin orta sayının göstəricisi 1.1 olub ki, bu da Azərbaycan ali təhsil müəssisələri arasında ikinci ən yaxşı göstəricidir. Bura ali təhsil müəssisələrinin SCOPUS bazasında indekslənmiş məqalələrinin sayı daxildir. Bu indikator üzrə UNEC-in irəliləməsinə əsas səbəblərdən biri bu ildən etibarən UNEC-də ilk dəfə olaraq, pedaqoji heyətin motivasiyasını təmin etmək və müəllimlər arasında rəqabət mühitini gücləndirmək məqsədilə tətbiq olunan differensial əməkhaqqı sistemi olub.

Elmi dərəcəsi olan müəllimlərin sayı indikatoru üzrə də UNEC irəliləyiş əldə edib. UNEC-ə son iki ildə qəbul olunan elmi dərəcəli müəllimlərin sayı reytinqdə irəliləməsinə müsbət təsir göstərib. Belə ki, fəlsəfə doktoru və elmlər doktoru elmi dərəcələri olan müəllimlərin sayının ümumi müəllimlərin sayına olan nisbəti 55.9% təşkil edib ki, bu da UNEC-ə 10.4 bal qazandırıb.

Əcnəbi müəllimlərin sayının yerli müəllimlərin sayına olan nisbəti indikatoru üzrə alınan bal 10.8, əcnəbi tələbələrin sayının yerli tələbələrin sayına olan nisbəti indikatoru üzrə isə toplanan bal 4.9 olub.

Beləliklə, dövlət dəstəyi ilə son iki ildə genişləndirilən akademik və tədris fəaliyyəti, kadr potensialının artırılması və işəgötürənlər arasında beynəlxalq və milli səviyyədə artan nüfuzunun nəticəsi olaraq UNEC bütün indikatorlar üzrə yüksək qiymətləndirilərək ilk dəfə dünya səviyyəli QS reytinq agentliyinin İnkişaf etməkdə olan Avropa və Mərkəzi Asiya regionu üzrə sıralamasında ən yaxşı 200 universitet sırasına yüksəlib.

QS Quacquarelli Symonds LTD dünya üzrə ali təhsil müəssisələrinin reytinqini 2004-cü ildən etibarən müəyyən etməkdədir. Reytinq İnkişaf etməkdə olan Avropa və Mərkəzi Asiya regionu, Braziliya, Rusiya, Hindistan, Çin və Cənubi Afrika regionu, Asiya, Latın Amerikası və Ərəbistan regionları üzrə ali təhsil müəssisələrinin sıralamasını aparır. Dünya üzrə reytinq sıralaması isə hər ilin sentyabr ayında aparılır.

***"Azərbaycan"***